## QƏBƏLƏ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ 2016-cı İLİN MART AYINDA YERLƏRDƏ KEÇİRƏCƏYİ QƏBULLARIN VƏ GÖRÜŞLƏRİN QRAFİKİ

| Tədbirin keçiriləcəyi yaşayış məntəqəsinin adı (şəhər, qəsəbə, kənd) | Tarix | Görüşün keçiriləcəyi yer və vaxtı |
|---|---|---|
| Böyük Pirəlli kəndi | 01.03.2016 | Kənd məktəbi, saat $15^{00}$ |
| Çarxana kəndi | 09.03.2016 | Kənd məktəbi, saat $15^{00}$ |
| Çuxur Qəbələ kəndi | 15.03.2016 | Kənd məktəbi, saat $15^{00}$ |
| Abrıx kəndi | 22.03.2016 | Kənd məktəbi, saat $15^{00}$ |
| Zirik kəndi | 29.03.2016 | Kənd məktəbi, saat $15^{00}$ |

**Qəbula dəvət olunurlar:** təhsil, səhiyyə, mədəniyyət və turizm şöbələrinin, hüquq-mühafizə orqanlarının, əhalinin sosial müdafiəsi, məşğulluq, gigiyena və epidemiologiya mərkəzlərinin, dövlət sosial müdafiə fondunun, poçtamtın, telekommunikasiya qovşağının, elektrik şəbəkəsinin, yol istismar, baytarlıq, qaz istismar, suvarma sistemləri, meşələrin bərpası və mühafizəsi idarələrinin rəhbərləri.

# Qış turizminə xüsusi diqqət



Bölgədə ən çox turist qəbul edən “Tufandağ” Qış-Yay Turizm İstirahət Kompleksinin tikintisində işlərin birinci mərhələsi başa çatdırılıb. Hazırda ikinci mərhələ üzrə işlər görülür. Ötən il yanvarın 3-də Prezident İlham Əliyevin iştirakı ilə istifadəyə verilən kompleksin 4 kanat xəttinin hamısı və 10 xizək yolundan 8-də tikinti işləri yekunlaşıb. Turistlərin istirahətinin təşkili üçün hər cür şəraiti olan restoranlar və beşulduzlu “Tufandağ” oteli açılıb, bütün dağ-xizək trassası süni qaryağdıran generasiya sistemi ilə təchiz edilib və gün ərzində kompleksdə 3 min nəfərə xidmət göstərilməsi üçün şərait yaradılıb. Ümumilikdə 4 kanat xəttinin uzunluğu 6 kilometr, 10 xizək yolunun uzunluğu 17 kilometrdir.

Kompleks rəhbərinin sözlərinə görə, “Tufandağ” Qış-Yay Turizm İstirahət Kompleksinin xidmətlərindən ötən iki il ərzində 270 min nəfər yerli və xarici qonaq bəhrələnib. Hazırda kompleksin ərazisi qalın qar örtüyü ilə əhatə olunub və xizəkçilik üçün əlverişli şərait mövcuddur. Qarşıdakı günlərdə, eləcə də Dünya Azərbaycanlarının Həmrəyliyi Günü və Yeni il bayramları ilə əlaqədar tətil günlərində Bakıdan, respublikanın müxtəlif şəhər və rayonlarından, xarici ölkələrdən 20 minə yaxın xizək həvəskarının Qəbələyə gələcəyi gözlənilir. Hazırda müxtəlif turizm şirkətləri tərəfindən “Tufandağ” Qış-Yay Turizm İstirahət Kompleksində xizəkçiliklə əlaqədar xüsusi turlar təşkil edilir.

Turistlər əvvəlcə kanat yolu ilə qarla örtülmüş uca dağların zirvəsinə qalxaraq oradan Qəbələ şəhərini, Duruca kəndini və ətrafdakı çayları, meşələri, gözəl mənzərəni seyr edir, xatirə şəkili çəkdirirlər. Bir nəfər üçün 10 manat ödəməklə kompleksin 4 kanat yolu ilə dağlarda 6 kilometr məsafə qət etmək mümkündür. Turistlərin 1660 metr hündürlüyə qalxaraq dağın zirvəsindəki kafe və restoran xidmətlərindən də bəhrələnmək imkanı var. Kompleksin ərazisində böyüklər və uşaqların istirahəti üçün hər cür şərait mövcuddur.

# Keçən ay inflyasiyanın səviyyəsi 5,8 faiz olmuşdur

Dövlət Statistika Komitəsinin məlumatına görə, yanvar ayında ərzaq məhsullarının qiymətləri 8,7 qeyri-ərzaq məhsullarının 5,6, əhaliyə göstərilən pullu xidmətlərin qiymətləri 2,1 faiz bahalaşmışdır. Ümumilikdə istehlak məhsullarının və əhaliyə göstərilən pullu xidmətlərin qiymətləri əvvəlki aya müqayisədə 5,8 faiz qalxmışdır.

Ay ərzində düyünün, unun, çörəyin, qarabaşaq yarmasının, makaron məmulatlarının, mal, qoyun və toyüq ətinin, kolbasa məmulatlarının, balıq məhsullarının, süd məhsullarının, yumurtanın kərə və bitki yağlarının, şəkər və şəkər tozunun, limonun, portağalın, naringinin,almanın, armudun, bananın, heyvanın, narın, xurmanın, şabalıdın, xiyarın, pomidorun, kələmin, badımcanın, bibərin, çuğundurun yeprkökünün, kartofun, soğanın, sarımsağın, göyərtinin, spirtli içkilərin, tütün məmulatlarının qiymətlərində bahalaşma müşahidə olunmuşdur. Digər ərzaq məhsullarının qiymətlərində ciddi dəyişikliklər baş verməmişdir.

Qeyri-ərzaq məhsullarından—parçaların, geyim və ayaqqabıların, inşaat materiallarının, məişət sihazlarının, məlumatın işlənməsi üçün avadanlıqların, səsin və təsvirin qəbulu, yazılması,əks etdirilməsi üçün qurğuların, telefon və fotoaparatların, kiçik elektrik cihazlarının, mebel və ev əşyalarının, xalça və digər döşəmə örtüklərinin, şüşə məmulatları, yemək qabları və əşyalarının, yuyucu vasitələrin, dərmanların, minik avtomobilləri və onların ehtiyat hissələrinin, dəftərxana ləvazimatlarının, zərgərlik məmulatlarının qiymətlərində də bahalaşma müşahidə edilmişdir. Digər qeyri-ərzaq məhsullarının qiymətlərində işə ciddi bahalaşma olmamışdır.

Ay ərzində əhaliyə göstərilən pullu xidmətlərdən hava və dəmiryolu ilə beynəlxalq sərnirşindaşıma nəqliyyatında qiymətlər ucuzlaşmış, tibbi xidmətlərin, avtobusla beynəlxalq sərnişindaşıma, avtomobillərin, məişət cihazlarının, mebel, ev əşyaları və döşəmə örtükləriin təmiri, paltarların təmizlənməsi, təmiri və kirayəsi, restoranlar və kafelər tərəfindən yeməklə təmin edilmə, hotel, mehmanxana tərəfindən gecələmə xidmətlərinin qiymətləri isə bahalaşmışdır. Digər pullu xidmətlərin qiymətlərində ciddi dəyişikliklər qeydə alınmamışdır.

# Təqvimdən sətirlər

**18 fevral:** Şair, əməkdar incəsənət xadimi, Füzuli ənənələrinin davamçısı Əlağa Vahid (Əlağa Məmmədqulu oğlu İsgəndərov 1895—1965) anadan olub. XX əsr Azərbaycan ədəbiyyatında qəzəl janrının görkəmli nümayəndəsi idi.

İtalyan alimi, fizik və fizioloq **Aleksandro Volta** (1745—1827) anadan olub. Elektrik gərginliyi vahidi- Volt onun adı ilə bağlıdır.

**19 fevral:** Görkəmli polyak astronomu **Kopernik** (1473—1827) anadan olub. Dünyanın helosentrik sistemi nəzəriyyəsinin banisidir. Onun «Göy sferalarının dolanması haqqında» adlı əsərindən sonra əvvəllər dünyanın mərkəzi hesab olunan Yer planet elan olundu. Dünyanın vəhdəti, göyün və Yerin eyni qanuna tabe olması ideyası meydana gəldi.

**22 fevral:** Azərbaycan xalq artisti bəstəkar **Süleyman Əyyub oğlu Ələsgərov** (1924-cü ildə Şuşada anadan olmuşdu.

**Corc Vaşinqton** (1732—1799) anadan olmuşdur. O, 1789—1797-ci illərdə ABŞ-ın ilk Prezidenti olub, Onun sədrliyi ilə hazırlanmış ABŞ Konstitusiyası bir neçə dəyişiklik edilməklə hələ də qüvvədədir.

Görkəmli ədəbiyyatşünas **Həmid Araslı** (1904—1799), əməkdar həkim, akademik, cərrah **Fuad Əfəndiyev** (1909—1963) anadan olmuşlar.

**23 fevral:** Xalq artisti, rejissor **Şəmsi Bədəlbəyli** (1919—1981), anadan olmuşdur. Akademik Dram və Musiqili Komediya Teatrlarında, filarmoniyada bədii rəhbər, rejissor və direktor işləmişdir. Türkmənistanda «Koroğlu» operasını tamaşaya qoymuşdur.

Coğrafiyaşünas alim, akademik **Budaq Budaqov** 1928-ci ildə Zəngibasar qəzasının Çobankərə kəndində anadan olub. EA-nın Coğrafiya İnstitutunda şöbə müdiri, direktor müavini, direktoru işləmişdir. Əsas tədqiqatları demorfologiya, yeni tektonika paleoloqrafiya, landşafşünaslıq və toponomiya məsələlərinə həsr olunub.

**24 fevral:** Görkəmli ictimai xadim və dövlət xadimi, genetik və seleksiyaçı akademik **İmam Mustafayev** (1910—1997) anadan olmuşdur. O, kənd təsərrufatı naziri, AKP MK-nın birinci katibi olmuş, EA-nın Genetika və Seleksiya İnstitutuna rəhbərlik etmişdir.

**Fevralın 25-dən 26-na** keçən gecə erməni silahlı birləşmələri tərəfindən Rusiyanın Xankəndində yerləşən 366-cı alayının fəal köməyi ilə **Xocalı şəhəri yerlə yeksan edilmişdir.**

**25 fevral:** tanınmış ictimai xadim, pedaqoq, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü, əməkdar elm xadimi, filologiya elemləri doktoru, professor Həsən İbrahim oğlu Mirzəyev (1927—2015) vəfat etmişdir. Dərələyəz mahalının Qovuşuq kəndində anadan olmuş (26 noyabr) Naxçıvan Dövlət Müəllimlər İnstitutunun, daha sonra Azərbaycan Dövlət Pedaqoji institutunu bitirib. Müəllim kimi doğma kəndlərində əmək fəaliyyətinə başlamışdır. 1962-ci illərdə aspiranturada oxumuş, 1965-ci ildə namizədlik, 1988-ci ildə doktorluq disertasiyaları müdafiə etmiş 1990-ci ildə professor elmi dərəcəsi almışdır. 200-dən çox elmi məqaləsi, 25 kitabı 10-a yaxın dərs vəsaiti işıq üzü görmüşdür. 1998-2000-ci illərdə MM üzvü, Azərbaycan Partiyası Siyasi Şurasının üzvü olmuşdur.

**26 fevrval:** Məşhur fransız yazıçısı Viktor Hüqo (1802—1885) anadan olmuşdur. Onun «Kral əylənir», «Mariya Tüdor» dramları, «Səfillər» romanı, «Paris Notrdam kilsəsi» əsərləri məşhurdur.

**27 fevral:** Görkəmli oftalmoloq, cərrah, Sosialist Əməyi Qəhrəmanı, SSRİ Dövlət mükafatı laureatı **Vladimir Filatov** (1875-1956) anadan olub.

**28 fevral:** Xalq artisti, görkəmli aktyor **Mustafa Mərdanov** (1894—1968) Cənubi Azərbaycanın Mərənd mahalında anadan olmuşdur. Səhnə fəaliyyətinə Tbilisidə (o vaxt Tiflis) müsəlman dram dərnəyində başlamışdır. Sonra Azərbaycan Milli Akademik Dram Teatrında fəaliyyətini davam etdirmiş, tamaşaya qoyulan bir sıra klassiklərin əsərləri üzrə müxtəlitf rolları ifa etmiş, Azərbaycan Teatr Cəmiyyətləri İttifaqının sədri olmuşdur.

Klassik güləş üzrə ilk azərbaycanlı idman ustası **Rəşid Məmmədbəyov** (1927—1970) anadan olmuşdur.

**29 fevral:** Görkəmli yazıçı və dramaturq **Məmmədxanlı Ənvər Qafar oğlu** (1913—1990) Göyçay şəhərində anadan olmuşdur. Ona ad günü 4 ildən bir düşür. «Şərqin səhəri», «Od içində» pyesləri, bir neçə kitabı çap olunmuşdur. Bir neçə kinofilmlərə ssenari yazmışjır.